***Bu yazı iki gün öncə Güney Azərbaycanda yayılmışdır. Yazının müəllifi Azərbaycan Milli Hərəkatı gənclərinin iznilə bu önəmli bildiri Quzey və Türkiyə mediasında işıqlanmaq üçün GAMQH-OFFİCİAL tərəfindən türkcəyə çevrilmişdir. Yayılmasında yardımçı olalım lütfən!***

**Şərəfli və zəkalı Azərbaycan (Türk) Millətinə!**

Əziz millətimiz, Azərbaycanın yox edilməsilə bağlı dövlət layihəsi son aşamadadır. Bu alarm sizin üçün son uyarıdır! Artıq öz dərin düşüncənizlə bu yıxıcı proyektin durdurulması Sizə qalmışdır! Artıq, öz mənliyinizə yiyələnmə yolların seçimi Sizə qalmışdır!

**Uca Türk Millətimiz,**

100 ildən bəri geniş alanlı kültürümüzü, dilimizi və bir anlamda milli varlığımızı Fars irqçiliyinə məhküm edən faşizm düşüncə, indi də Türk və Azərbaycan varlığını bir başa yox etmə strategiyası ilə qarşımızda dayanıbdır.

Azərbaycan türklərinin, özəlliklə Təbrizin igid xalqının canla-qanla həyat şansı verdiyi Məşrütənin ingiltərə gücü ilə aradan qalxması, ayrıca 1945-ci ildə M. C. Pişəvəri başçılığında qurulan Azərbaycan Milli Hökumətinin Amerika yardımı ilə qan dənizində boğulmasının gətirdiyi türklərə qarşı soy və boyqırım Fars şovinizmini iqna etməmiş kimi, indi də türkləri və Azərbaycan təməldən yoxa çıxarma planı ortaya qoyulubdur.

***"Yanıq Bölgə"*** Azərbaycan düşmənlərinin ortaya qoyduğu yeni proyektdir. Neçə başlı bu planın amcı isə ilk olaraq Urmu Gölüdür!

Cinayətkar düşmən, Urmu Gölünü sulandıran bütün çayların üzərində su anbarları tikərək Azərbaycanın "Üzük Qaşını" qurutmaqla, Azərbaycan Türk Millətinə qarşı öz çirkin və faşistı niyyətini sonuclandırmağa çalışır.

Hardasa, dövlətə bağlı və özgür ekologiya uzmanlarına görə, Urmu Gölünün qurudulması ilə bölgənin əkin-biçin sahələri bütünlüklə aradan gedəcək, duz qasırqasından ortaya gələn çeşidli kanserlər özəlliklə azyaşlıların ölümünə nədən olacaq, bütün yaşam sistemini aradan qaldıracaq və Azərbaycanın duz çölünə dönüşməsinə yol açacaqdır. Bu isə, ağır insan ölümü və ən azında beş Azərbaycan əyalətinin məcburi köç etməsilə sonuclanacaqdır.

Böyük millətimiz, bu faciənin boyudlarını beş-on sətirdə anlatmaq mümkün deyil. Biz, vətənimiz Azərbaycanın övladları olaraq bu alarmı səsləndiririk ki, özünə və toplumuna özgələşən azınlıqla, keçim və məişət çəmbərində əzilən çoxunluq faciənin dərinliyinə düşünsün! Özünə gəlsin ki, bu soyqırım və açıq qətliamın sonunda yaşla-qurunun bir çatı altında kül olmasını anlasın! Özünə gəlsin ki, bizim milli sərvətlərimizin üzərində cənnət yaradanların düşmənliyini dərk etsin! Özünə gəlsin ki, ən şansılı durumda Fars bölgələrində aşağılanaraq, təhqir olunaraq yeniçağ qul olacağını unutmasın!

Quşqusuz ki, tarix boyu ən ağır sınaqlardan keçən igid Azərbaycan Türk Milləti, yenə də ayaqlanaraq başını uca tutacaq, yenə də zülmün kökünü qazıb öz böyüklüyü ilə insanlara azadlıq gətirəcək. Sözsüz ki, hər zaman olduğu kimi, bu kəz də ölməz millətimiz anka (qoqnus) quşu kimi öz külündən doğaraq, möhtəşəm yaşamı üçün tarixsəl görəvini yerinə yetirəcəkdir.

**Azərbaycan Milli Hərəkatı gəncləri**